BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2010

# RUS ÇARİZMİNİN ŞİMALİ AZƏRBAYCANDA AQRAR SİYASƏTİNDƏ 1847-Cİ İL «KƏNDLİ ƏSASNAMƏLƏRİ»NİN YERİ

**M.Q.ABDULLAYEV**
***Bakı Dövlət Universiteti***
***Mehman_Abdullayev@mail.ru***

*Məqalədə rus çarizminin Şimali Azərbaycanın sahibkar kəndində yeritdiyi aqrar siyasətində 20 aprel və 28 dekabr Kəndli Əsasnamələrinin yeri və rolu araşdırılaraq müəyyən olundu ki, işğaldan sonra çar hökuməti bəy və ağalarla kəndlilər arasındakı münasibətləri aqrar qanunvericilik yolu ilə ilk dəfə tənzimləməyə və rəsmi şəklə salmağa cəhd göstərmişdir. Əsasnamələrdə Azərbaycanın müxtəlif bölgələrində kəndlilərin bəy və ağalardan sosial-iqtisadi asılılıq formaları, ödədikləri vergilər, onların miqdarı, ödənilmə və müxtəlif mükəlləfiyyətlərin yerinə yetirilmə qaydaları öz əksini tapmışdır.*

1846-cı il 6 dekabr Ali reskripti ilə Azərbaycan bəylərinin torpaq üzərində mülkiyyət hüququnu qanuniləşdirəndən [1, 343-348] sonra çar hökuməti bəy-kəndli münasibətlərini tənzimləməyə başladı. Bu məqsədlə 1847-ci ilin aprelin 20-də və dekabrın 28-də iki Kəndli Əsasnaməsi verildi. 20 aprel Əsasnaməsi Şamaxı və Dərbənd quberniyalarının bəyləri ilə, 28 dekabr Əsasnaməsi isə Qazax, Şəmşəddil və Borçalı qəzalarının ağaları ilə kəndlilər arasında qarşılıqlı münasibətlərin müəyyənləşdirilməsinə və hüquqi baxımdan tənzimlənməsinə yönəldilmişdi (5). Arxiv materiallarının təhlili əsasında aydınlaşdırıldı ki, Əsasnamələrin təsir dairəsi Şimali Azərbaycanın bütün ərazisini əhatə etməmiş, Yelizavetpol, Ayrım bölgələrinə və Zaqatala dairəsinə şamil olunmamışdı [4, siy.5, iş 266; siy.15, iş 17].

1847-ci il Əsasnamələri quruluşca 4 fəsildən ibarətdir. Birinci fəsildə bəy və ağalara məxsus kəndlilərin torpaqla təminatı məsələsi, II fəsildə kəndlilərin bəy və ağaların xeyrinə daşıdıqları vergi və mükəlləfiyyətlər, onların ödənilməsi qaydaları; III fəsildə sahibkarların torpaq və kəndlilər üzərində hüquq və vəzifələri, IV fəsildə isə Cənubi Qafqazın yerli hakimiyyət orqanlarının Əsasnamələrin həyata keçirilməsi sahəsində vəzifə səlahiyyətləri öz əksini tapmışdır.

Şimali Azərbaycanın XIX əsr aqrar qanunvericiliyində mühüm yer tutan 1847-ci il Kəndli Əsasnamələrində təkcə bəy və ağaların deyil, həmçinin keçmiş xan nəslindən olan ali zümrənin nümayəndələrinin də kəndlilərlə bağlı sahibkarlıq hüququnun nizamlanmasına müəyyən təşəbbüs göstərilmişdi. Hətta 1847-ci il 20 aprel Kəndli Əsasnaməsinə keçmiş xan nəslindən olan ali zümrə nümayəndələri ilə bağlı 4 bənd daxil edilmişdir. Əsasnamədə belə ailələrə bir sıra imtiyazlar verilməsi nəzərdə tutulmuşdu. Xan nəslindən olan ailələrə məxsus nökərlər (kəndlilərin sosial-iqtisadi və hüquqi cəhətdən ən ağır vəziyyətdə olan hissəsi-M.A.) dövlət xəzinəsinə vergilərdən azad edilirdilər. Onlar bir yerdən başqa yerə sərbəst şəkildə keçmə hüququna malik deyildilər. Əsasnamədə göstərilirdi ki, "əgər xan nökərləri başqa yerə keçmək

istəsəydilər, onların bütün daşınmaz əmlakı və geyim əşyalarını çıxmaqla daşınan əmlakının yarısı sahibkarın istifadəsində qalırdı”. Xan ailələrinə məxsus torpaqlarda yaşayan kəndlilərə yalnız xəzinə (dövlət) torpaqlarına keçməyə icazə verilirdi. Ancaq bu zaman belə bir şərt qoyulurdu ki, kəndlinin keçməsinə gərək Qafqazın canişini icazə verəydi. Kəndli “belə keçid zamanı bütün daşınmaz əmlakını istisnasız olaraq torpaq sahibinin ixtiyarında qoyub getməli idi [5].

Əsasnamə ilə keçmiş xan nəslindən olan sahibkarlara “zemski polisinin iştirakı olmadan öz kənd ağsaqqallarını-böyüklərini (starşina) seçməyə və əvəz etməyə” icazə verilirdi. Bu zaman sahibkar dəyişikliklər haqqında yalnız yerli idarə rəislərinə məlumat verməli idilər. Bu tədbir haqqında Qafqazın canişini M.S.Vorontsov yazırdı: “Bu tədbir xan ailələrinə göstərəcək ki, hökumət onlara xüsusi hörmətlə yanaşır, bununla birlikdə onları minnətdarlıq hissi ilə bizim tərəfimizə çəkəcəkdir” [2, iş 162, vərəq 59].

Araşdırmalar göstərdi ki, Şimali Azərbaycanın sahibkar kəndində bu Əsas-namələr verilənədək kəndlilərə torpaq payının ayrılması və torpağın ölçüsü ilə bağlı hər hansı bir qanun mövcud olmamışdır. Əsanamənin I maddəsinə görə sahibkar 15 yaşından yuxarı hər bir kişi kəndlini 5 desyatindən az olmayan əkinə yararlı torpaqla təmin etməyə borclu idi; III maddəsinə görə kəndlilər yalnız istifadə etdikləri torpağa görə vergi ödəməli idilər. Bu tələb 6 dekabr 1846-cı il Ali reskriptinin 8-ci bəndində də nəzərdə tutulmuşdu. Sahibkar rəncbərlərə də torpaq payı ayırmalı idi. Əks halda rəncbərlər feodala vergi verməkdən azad edilir, hətta dövlət kəndlilərin sırasına keçirilirdilər [3, iş 4, vərəq 7, 25].

20 aprel 1847-ci il Əsasnaməsinin II fəslində sahibkar kəndlilərin vergi və mü-kəlləfiyyətləri sadalanmış və onların yerinə yetirilmə qaydası əksini tapmışdır: kəndlilər malcəhət vergisi verməli, nökərlər göndərilməli, biyara getməli, maldar əhali mal-qaranın otarılması üçün pul vergisi ödəməli idi (maddə 4). 6-cı maddədə göstərilirdi ki, malcəhət kəndlinin məhsulun onda bir şəklində ödədiyi vergi idi. Əgər kəndli torpağın becərilməsi zamanı sahibkarın əmək alətindən və toxumundan istifadə edərdisə, “onda kəndli sahibkarla ona ödəyəcəyi məhsul vergisinin miqdarı haqqında razılığa gəlməli idi; bu zaman məhsul vergisi ümumi məhsulun beşdə birindən çox olmamalı idi” [5].

Qeyd etmək lazımdır ki, malcəhət kəndlilərin sahibkara ödədiyi ən ağır vergilərdən biri idi. Əsasnamənin müəyyən etdiyi şərtlər bu vergini daha da ağırlaşdırırdı. Belə ki, məhsul yığımı sahibkarın iştirakilə həyata keçirilirdi və o, “özünə çatan hissəni şəxsən ayırırdı”. Məhsul yığımından sonrakı üç gün ərzində kəndli məhsulun bölgüsünü həyata keçirməli idi və bu heç də həmişə onun xeyrinə olmurdu. Çünki bu zaman o, tarla işlərindən ayrılaraq məhsulun bölünməsi və malcəhətin sahibkara çatdırılması ilə məşğul olmalı idi. Əgər sahibkar malikanənin ərazisində yaşayırdısa, kəndli məhsulun ona çatan hissəsini (malcəhət) üç gün ərzində daşıyıb aparmalı idi; əgər sahibkar başqa bir yerdə, ancaq 50 verstdən yaxında yaşayırdısa, kəndli məhsulu on beş gün ərzində sahibkara çatdırmağa borclu idi. Sahibkar 50 verstdən uzaqda yaşayırdısa, kəndlilərə icazə verilirdi ki, malcəhəti boş vaxtında, bütün tarla işləri qurtarandan sonra sahibkara çatdırsın. 19-cu bəndə görə bu zaman kəndlinin məhsulun daşınmasına sərf etdiyi vaxt onun sahibkarın xeyrinə iş günü kimi qeydə alınırdı. Lakin bir qayda olaraq Şimali Azərbaycanda sahibkarlar öz kəndlilərindən yuxarıda göstərilən məsafədən uzaq yerdə yaşamırdılar.

Qeyd etməliyik ki, malcəhət vergisinin ödənilməsinin ağırlığı həm də onda idi ki, kəndli məhsulu mülkədara təhvil verənədək onun zay olmamasına cavabdehlik

daşıyırdı (20 aprel Əsasnaməsinin 10-cu maddəsi).

Əsasnamələrin təhlili göstərir ki, malcəhət haqqında maddə kəndlilərin vəziyyətini ağırlaşdırmaqla bərabər sahibkarların vəziyyətdən sui-istifadə etməsi üçün də şərait yaradıldı. Baxmayaraq ki, 1847-ci il Əsasnamələri ilə əvvəllər mövcud olmuş bütün natural vergilər ləğv edilmişdi.

Qanunlar natural vergidən başqa mülkədarın xeyrinə digər mükəlləfiyyətlərin də ödənilməsini nəzərdə tutmuşdu. Əsasnamənin 11-ci maddəsinə görə kəndlilər hər on ailədən bir kişi cinsindən olan nökər..

20 aprel Əsasnaməsinin 11-ci maddəsində hər 10 kəndli ailəsinin bəyin xidmətinə 1 kişi nökər, hər 15 kəndli ailəsinin isə bəyin qulluğuna 1 qadın nökər göndərməli olduğu öz əksini tapmışdır [5]. Bəyin xidmətinə qadın nökər göndərilməsi qaydası Azərbaycan tarixində indiyədək görünməmiş hadisə idi, bu, əhali içərisində təşvişə səbəb olmuş və ciddi narazılıq yaratmışdı. Bizim üçün ən maraqlı cəhət ondadır ki, bu maddə kəndlilərlə yanaşı bəyləri də xeyli təəccübləndirmiş, bir Azərbaycan müsəlman kişisi kimi onları da narazı salmışdı. Qafqazşünas alim M.Kuçayev yazırdı: «Qanunun bu maddəsi elan olunanda bütün bəylər təəccübləndilər, çünki onlar heç bir zaman belə mükəlləfiyyətlərdən yararlanmamışdılar; bu yenilik yerli xalqın adət-ənənə və əxlaqına tamamilə zidd idi» [7, 3]. Azərbaycan bəyləri ləyaqətli addım ataraq hakimiyyət orqanlarına kəndlilərdən də əvvəl öz narazılıqlarını bildirmiş və bu yeniliyin ləğvini tələb etmişdilər. Nəticədə qubernator 11-ci maddənin qüvvəsinin dayandırılması üçün məsuliyyəti öz üzərinə götürmüşdü [7, 3]. Bu fakt göstərir ki, çar hökuməti hər hansı bir islahatı keçirəndə və ya qanun qəbul edəndə Azərbaycan xalqının adət-ənənələrini və əxlaqi dəyərlərini nəzərə almırdı. Maraqlıdır ki, qadın nökər göndərilməsi ilə bağlı kəskin etirazı hökumət orqanları ikinci Əsasnamənin hazırlanması zamanı nəzərə almalı olmuşdular. Belə ki, 28 dekabr 1847-ci il Əsasnaməsinin 10-cu maddəsində bəy ailəsinin xidmətinə yalnız kişi nökərin göndərilməsi nəzərdə tutulmuşdu [8, 932].

1847-ci il Kəndli Əsasnamələrində kəndli ailələrinin bəyin xidmətinə nökər göndərməsi ilə bağlı bir sıra qaydalar öz əksini tapmışdır. Əsasnamələrdə deyilirdi ki, nökər göndərilməsi daha çox o kəndlilərin içərisindən təyin olunsun ki, onların öz təsərrüfatları yoxdur və yaxud bir kişi nökərin göndərilməsi həmin kəndli ailəsinin təsərrüfatının iflasa uğramasına səbəb olmasın və kəndlini yaşayış (dolanışıq) vasitələrindən məhrum etməsin. Belə şərtin qoyulması göstərir ki, hökumət orqanları kəndli aillərindən sahibkara xidmət üçün nökər göndərməsinin ağırlığını yaxşı başa düşürdülər və yuxarıda göstərilən məhdudiyyətlərlə bir tərəfdən kəndli təsərrüfatlarının iflasa uğramasının və vergi ödəyicilərinin sayının azalmasının qarşısını almağa çalışırdılar. Bu fikir Əsasnamələrin digər maddələrinin təhlili zamanı bir daha təsdiq olunmuşdur. Belə ki, 20 aprel Əsasnaməsinin 17-ci maddəsində, 1847-ci il 28 dekabr Əsasnaməsinin 16-cı maddəsində göstərilirdi ki, nökər göndərən kəndli ailələri sahibkarın xeyrinə digər mükəlləfiyyətlərdən azad edilirdilər. Bundan başqa həmin Əsasnamələrin müvafiq olaraq 18 və 17-ci maddələrinə görə sahibkar həmin ailələrin dövlət vergilərini ödəməli idi.

Həmçinin, nökər sahibkardan yemək və paltar da almalı idi (maddə 16 və maddə 15).

Qanun nökərin təyin olunması qaydasını da müəyyən edirdi. 20 aprel Əsasnaməsinin 13-cü maddəsində deyilirdi: 1) bir ailədən bir nəfərdən çox nökər təyin edilməsi; 2) 20 yaşdan gənc kişinin nökər təyin edilməsi; 3) müsəlman sahibkarlara xristian ailələrindən kişi və qadın nökər göndərilməsi, müsəlman ailələrindən nökər

göndərilməsi qadağa edilirdi.

Araşdırmalar göstərir ki, yuxarıdakı qadağanı qoymaqla çar hökuməti yerli adət-ənənələrlə hesablaşmağa və Azərbaycan xalqının məişət həyatının xüsusiyyətlərini nəzərə almağa məcbur olmuşdu.

1847-ci «Kəndli Əsasnamələri» verilənədək Azərbaycanın sahibkar kəndində işləyib ödəmə mükəlləfiyyəti (biyar) hər hansı bir qanunla tənzimlənməsə də, yerli adətlərə görə ildə 8 günə çatırdı. Bu qayda Əsasnamələrin birində nəzərə alınmış, digərində isə biyarın müddəti 2 dəfədən də çox artırılmışdı. 20 aprel Əsasnaməsinin 19-cu maddəsində biyar mükəlləfiyyəti hər kəndli ailəsi üçün ildə 18 gün, 28 dekabr Əsasnaməsində isə ildə 8 gün müəyyən edilmişdi. Biyarla bağlı Əsasnamənin 20-21-ci maddələrində deyilirdi ki, əgər bəyin öz təsərrüfatı yox idisə və yaxud kəndlilərin biyar mükəlləfiyyətini ödəməsinə ehtiyac duymurdusa, kəndli ailəsi biyarın hər günü üçün sahibkara 10 qəpik pul ödəməli idi.

Kəndli Əsasnamələrində sahibkar kəndlilərinin bəy və ağaların torpağındakı otlaqlardan istifadə üçün çöpbaşı adlanan pul vergisi ödəməsi qaydası da öz əksini tapmışdı. Bu qaydaya görə çöpbaşı rüsumu kəndlinin qoyun və keçisi 20 başdan çox, iribuynuzlu mal-qarası 10 başdan çox və atı 5 başdan çox olduqda alına bilərdi. Ancaq Əsasnamədə çöpbaşı vergisinin miqdarı dəqiq göstərilməmişdi və bildirilirdi ki, bu vergi hər qəzada yerli adətlərə uyğun şəkildə yığılmalıdır.

Əsasnamələrin 27-28-ci maddələrinə görə hər bir maldar ailəsi torpaq sahibinə otlaqdan istifadə haqqı kimi ildə 4 gümüş manat pul və yerli adətə uyğun olaraq çöpbaşı ödəməli idi.

20 aprel Əsasnaməsinin 40-cı maddəsində, 28 dekabr Əsasnaməsinin 34-cü maddəsində sahibkar kəndlisinin bir yerdən başqa yerə sərbəst şəkildə keçmə hüququ rəsmən tanınmışdır. Sadəcə olaraq 34-cü maddə Əsasnamə çap olunan kimi qüvvəyə minsə də, 40-cı maddə 3 ildən sonra həyata keçirilmişdir [6, 121-122].

40-cı maddədə kəndlinin keçmə hüququ üçün bir çox şərtlər müəyyən edilmişdi. Belə ki, kəndli dövlət kəndinə keçmək istəsəydi, öz icması ilə yanaşı, onu qəbul edəcək icmanın da razılığı olmalı idi. Bəy kəndinə keçirdisə, bəyin razılığı alınmalı idi. Bəyə vergi borcu olan kəndli keçid hüququndan istifadə edə bilməzdi. Keçid üçün qəza rəisinin təqdimatı əsasında qubernator icazə verməli idi [6, 90].

Kəndli Əsasnamələrində bəylərə kəndlilər üzərində müəyyən polis və məhkəmə səlahiyyətləri də nəzərdə tutulmuşdu. Bəylərə kəndlilərin davranışları üzərində nəzarət hüququ verilir, bəylər eyni zamanda kəndlilər arasında baş verən kiçik mübahisəli məsələlərə və qarşılıqlı şikayətlərə baxa bilərdilər. 20 aprel Əsasnaməsinin 32-ci maddəsində deyilirdi ki, bütün mübahisə və iddialara, habelə cinayət məsuliyyəti daşımayan əməllərə sahibkarın nəzarəti altında sakinlərin içərisindən seçilən şəxslər tərəfindən baxılmalıdır. Bu maddə əslində kənddə məhkəmə hakimiyyətinin sahibkarın əlində cəmləşməsinə imkan yaradırdı. Maraqlıdır ki, bəylərə nisbətən Qazax, Şəmşəddil və Borçalı ağalarına daha geniş məhkəmə səlahiyyəti verilmişdi. Bu baxımdan ağalara aid 28 dekabr Əsasnaməsi daha irəli getmişdi. Əsasnamənin 26-cı maddəsində bütün işlərin, hətta cinayət xarakteri daşıyan işlərin kənd məhkəməsinin səlahiyyətinə verildiyi göstərilmişdi. Çar hökuməti bəy və ağaların torpaq hüquqlarını təsdiqləməklə əvəzində onlardan yerli xalqı itaətdə saxlamaqda bir vasitə kimi istifadə etməyə çalışırdı. Bəylər öz torpaqlarında qayda-qanunun pozulması, oğurluq, qarət və qətl hadisələrinə görə məsuliyyət daşıyırdılar. Onlar tabelikdə olan

sakinlərin bütün qanunsuz əməllərinin qarşısını almalı (maddə 33) idilər. Oğru və quldurların tutulması üçün heç bir tədbir görməyən sahibkarlar cəzalandırıla bilərdilər (maddə 37) [5].

Beləliklə, 1847-ci il Kəndli Əsasnamələri Azərbaycan kəndində mövcud olan aqrar münasibətlərin öyrənilməsi əsasında hazırlanmışdı və bu sənədlər bəy və ağalarla sahibkar kəndlilər arasında qarşılıqlı münasibətlərin hüquqi baxımdan tənzimlənməsi yolunda çar hökumətinin atdığı çox mühüm addımlardan biri oldu.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşrin tərtibçisi və redaktoru prof. S.S.Əliyarlı. Bakı: Bakı Universiteti, 2007, 400 s.
2. Gürcüstan MDTA fond 4, siy.1.
3. Gürcüstan MDTA fond 218, siy.1.
4. Rusiya Mərkəzi Dövlət Arxivi, fond 1268.
5. Газета "Кавказ", 1847г., № 46
6. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х годах XIX в., В 2-х ч., ч.2, М.-Л.: 1937, 478 с.
7. Кучаев М.Н. Поземельное устройство государственных крестьян водворенных на владельческих землях в Закавказких губерниях. В кн. Свод материалов для изучения экономического быта государственных крестьян Закавказкого края, том 1, часть 2, Тифлис, 1887, с.1-33
8. Полное Собрание Законов Российской Империи. собр. 2-е, т.22, 1846 отд.I, 939 с.


## МЕСТО «ПОСЕЛЯНСКИЕ ПОЛОЖЕНИЯ» 1847-ГО ГОДА В АГРАРНОЙ ПОЛИТИКЕ РУССКОГО ЦАРИЗМА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ


**М.Г.АБДУЛЛАЕВ**


### РЕЗЮМЕ


В статье исследуются место и роль «Поселянского положения» от 20 апреля и 28 декабря 1847 года в аграрной политике русского царизма в частновладельческих деревнях Северного Азербайджана, было выявлено, что царское правительство после завоевания региона пыталось урегулировать и узаконить отношения между беками и крестьянами посредством аграрного законодательства. В Положениях нашли свои отражение формы социально-экономической зависимости крестьян различных регионов Азербайджана от беков и агаларов, выплачиваемые налоги, их размеры, выплаты и нормы выполнения различных повинностей.


## THE PLACE OF "PEASANT REGULATIONS" OF 1847 IN THE AGRARIAN POLITICS OF RUSSIAN TSARIZM IN NORTHERN AZERBAIJAN


**M.G.ABDULLAYEV**


### SUMMARY


The article investigates the place and role of "Peasant regulations" of April 20 and December 28 in the agrarian politics of Russian tsarizm in the owner village of North Azerbaijan. The tsar government made efforts to regulate and officialize the attitudes between masters and peasants by the agrarian legislation. The forms of socio-economic dependence of peasants from masters in different regions of Azerbaijan, the taxes they paid, their amount, the payments and rules of performing different homages were reflected in the regulations.